*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2024, № 2* *ISSN: 2663-2926*
*Səhifə: 131-135* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2024.2.131*

## NƏZƏRİYYƏNİN TƏDQİQİ

# Şamil Salmanovun elmi yaradıcılığının əsas istiqamətləri

**Simuzər İsmayılova**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: simaismayilova.elm@mail.ru

**Annotasiya.** Məqalədə ədəbiyyatşünas alim Şamil Salmanovun keçən əsrin 60-cı illərindən başlayaraq ardıcıl olaraq Azərbaycan ədəbiyyatının mühüm və aktual metodoloji-nəzəri problemlərinin tədqiqi ilə məşğul olduğu qeyd edilir. Göstərilir ki, ədəbi mühitimizdə Şamil Salmanov daha çox poeziya tənqidçisi və ədəbi tənqidin tədqiqatçısı kimi fəaliyyət göstərmişdir.
Alimin məqalə və tədqiqatlarının mühüm bir hissəsi Azərbaycan tənqid tarixinin əsaslı problemlərinin araşdırılmasına həsr olunmuşdur.
Şamil Salmanov XX əsr poeziyasının demək olar ki, bütün dövrləri və görkəmli nümayəndələri haqqında da öz nüfuzlu tənqidçi-ədəbiyyatşünas sözünü demişdir.
**Açar sözlər:** Şamil Salmanov, tənqidçi alim, poeziya, ənənə və novatorluq, ədəbi tənqid

**Məqalə tarixçəsi:** göndərilib – 10.12.2024; qəbul edilib – 23.12.2024

# Main directions of Shamil Salmanov's scientific creativity

**Simuzar Ismayilova**
Institute Literature named after Nizami Ganjavi of ANAS
Doctor of Philosophy in Philology, Associate Professor
E-mail: simaismayilova.elm@mail.ru

**Abstract.** It is known that literary scholar Shamil Salmanov has been consistently engaged in the study of important and topical methodological and theoretical problems of Azerbaijani literature since the 1960s. It is shown that in our literary environment Shamil Salmanov has worked mainly as a poetry critic and a researcher of literary criticism.
A significant part of the scholar's articles and research is devoted to the study of fundamental problems of the history of Azerbaijani criticism.
Shamil Salmanov, as an influential critic and literary scholar, has spoken about almost all periods and prominent representatives of 20th-century poetry.
**Keywords**: Shamil Salmanov, critical scholar, poetry, tradition and innovation, literary criticism

**Article history:** received – 10.12.2024; accepted − 23.12.2024

## Giriş / *Introduction*

Azərbaycan ədəbi tənqidinin və ədəbiyyatşünaslığın tanınmış və nüfuzlu alimlərindən olan professor Şamil Salmanov uzun illər müasir Azərbaycan ədəbiyyatının mühüm və aktual nəzəri-metodoloji problemlərinin tədqiqi ilə məşğul olmuşdur.

Tədqiqat dairəsinin geniş olmasına, eyni zamanda ədəbiyyatın bütün janrlarından və müxtəlif problemlərindən yazmasına baxmayaraq, ədəbi mühitimizdə Şamil Salmanov daha çox poeziya tənqidçisi və ədəbi tənqidimizin tədqiqatçısı kimi tanınmışdır. Poeziyaya olan sonsuz vurğunluğuna baxmayaraq, Şamil Salmanov ömrünün əsas hissəsini elmi yaradıcılığa həsr etmiş, ədəbi-ictimai mühitdə tənqidçi kimi məşhurlaşmışdır. Ədəbiyyatşünas alim Arif Səfiyev məqalələrinin birində yazır: "Ədəbiyyatın bütün janrlarından və müxtəlif məsələlərindən yazsa da tənqidçinin öz mövzusu var: şeir və tənqid. Şamil ədəbiyyata da şeirlə başlamışdır. Sonralar janrı dəyişsə də ruhu dəyişmədi, şeir ruhu tənqiddə davam etdi" [1].

Ədəbiyyatşünaslığa olan böyük marağı onun şairliyini üstələsə də o heç vaxt poeziyadan ayrılmamış, paralel olaraq şeir yaradıcılığını da davam etdirmişdir. Müsahibələrinin birində özü bu məsələyə belə aydınlıq gətirir: "Mən şeiri tərk edib tənqidə üz tutmamışam, sadəcə bu iki sahənin birinə üstünlük vermişəm. Tənqid mənim üçün lirika kimi bir şeydir. Lirikada şair özünü ifadə etdiyi kimi, tənqiddə də tənqidçi özünün ədəbiyyata, həyata münasibətini, baxışını ifadə edir. ...Mən tənqidi seçdim və sevdim" [1].

## Əsas hissə / *Main part*

Keçən əsrin 60-cı illərində elmə gələn Şamil Salmanov yarıməsrlik fəaliyyətində ədəbiyyatşünaslıq elminin bir çox sahələrində tədqiqatlar aparmış, müxtəlif ədəbi problemlər üzərində araşdırmalar etmişdir. Alimin respublikanın müxtəlif mətbu orqanlarında beş yüzdən artıq məqaləsi, portret oçerkləri çap olunmuş, onlarla sanballı əsərləri işıq üzü görmüşdür. Bu məqalə və tədqiqatların mühüm bir hissəsi Azərbaycan ədəbi tənqidinin təşəkkül və inkişaf tarixinin, nəzəriyyə və təcrübəsinin əsaslı problemlərinin araşdırılmasına həsr olunmuşdur. Bu baxımdan onun "Müasirlik mövqeyindən", "Yeni meyar axtarışları", "Tənqid və ədəbi proses", "Müasir ədəbi proses və tənqid" və s. bu kimi onlarla sanballı məqaləsi, ayrı-ayrı tənqidçilərin kitablarına yazdığı müxtəlif resenziyaları xüsusi qeyd olunmağa layiqdir. Bu məqalələrdə Şamil Salmanov tənqidin mahiyyəti, vəzifələri, tədqiqat predmeti, metodları, müasirliyi və bu kimi vacib məsələlərə geniş və əhatəli şərhlər verir. Bütövlükdə bu əsərlər ədəbi tənqidimizin XX əsrin 20-ci illərindən başlayaraq bugünə qədərki inkişaf yolları haqqında aydın təsəvvür yaradır. Şamil Salmanovun tənqid tariximizin öyrənilməsində böyük rolu olmuşdur. Azərbaycan tənqidinin görkəmli nümayəndələrinin yaradıcılığı, tanınmış sənətkarların ədəbi-tənqidi görüşləri Şamil Salmanovun tədqiq etdiyi sahələrdəndir. Onun Azərbaycan tənqidinin təşəkkül və inkişafında xidmətləri olan tənqidçilərə həsr etdiyi məqalələrində – Əli Nazim, Hənəfi Zeynallı, Mustafa Quliyev, Mikayıl Rəfili, Mehdi Hüseyn, Məmməd Arif, Məmməd Cəfər, Əziz Mirəhmədov, Əkbər Ağayev və digər tənqidçilərin yaradıcılığını dərindən araşdırmaqla ədəbi-tənqidi fikir tarixində onların mövqeyini müəyyənləşdirməyə nail olmuşdur. Alimin bu məsələyə həsr olunmuş məqalələri öz elmi-nəzəri səviyyəsinin yüksəkliyi ilə diqqəti cəlb edir. Bu məqalələrdən əlavə, alimin iki kitabı, Azərbaycan ədəbi tənqidinin və ədəbiyyatşünaslığının görkəmli nümayəndələri Kamal Talıbzadənin və Bəkir Nəbiyevin ədəbi-elmi fəaliyyətinə həsr olunmuşdur: "Akademik Kamal Talıbzadə" (1998),

"Tənqidçi və ədəbi proses: (Akademik Bəkir Nəbiyevin ədəbi-elmi fəaliyyəti və tənqidi görüşləri)" (2001).

Adıçəkilən birinci monoqrafiyada akademikin elmi-ədəbi fəaliyyəti ilə yanaşı, onun keçən əsrin ilk onilliklərindən günümüzə qədər ədəbi-tənqid və ədəbiyyatşünaslığımızın keçdiyi inkişaf mərhələləri geniş tədqiqata cəlb edilir. Kitabda alimin ömür yolu, ədəbiyyatşünaslıq fəaliyyəti, tənqid tariximizin yaradılmasında əvəzsiz xidmətləri haqqında ətraflı məlumat verilir. Müəllifin ikinci monoqrafiyası isə Bəkir Nəbiyevin elmi-ədəbi və tənqidi irsini, ədəbi prosesdəki fəaliyyətini üzə çıxarmağa xidmət edən sanballı bir araşdırmadır. Bu monoqrafiyaların hər birinin özünəməxsus keyfiyyəti və dəyəri vardır.

Şamil Salmanov Azərbaycan tənqidinin yalnız tarixi ilə deyil, nəzəri problemləri ilə də ilk dəfə məşğul olan alimlərimizdəndir. Onun "Azərbaycan sovet şeirinin ənənə və novatorluq problemi" monoqrafiyası XX əsrin 60-cı illərində yazılmış ən yaxşı ədəbiyyatşünaslıq əsərlərindən biridir. Yeri gəlmişkən qeyd edək ki, Şamil Salmanov uzun illər bu mövzu üzərində çalışmış və yalnız 1970-ci ildə "Azərbaycan sovet şeirinin ənənə və novatorluq problemi (1920-1932-ci illər)" adlı tədqiqat əsərini tamamlayaraq müdafiə etmişdir. Tənqidçi alim gec müdafiə etməsinin səbəbini müsahibələrinin birində belə açıqlayır: "Mənim ilk əsərim olan "Azərbaycan sovet şeirinin ənənə və novatorluğu"nu üç ilə yazmalı idim. Lakin mənə tapşırılan işlərin çoxluğundan əsərimi uzun bir müddətə – düz 10 ilə başa çatdırdım". Bu əsər 1980-ci ildə monoqrafiya kimi çap olunmuşdur.

Əsərin elmi məziyyətlərini yüksək qiymətləndirən Bəkir Nəbiyev yazırdı: "Şamil Salmanovun "Azərbaycan sovet şeirinin ənənə və novatorluq problemi (1920-1932-ci illər)" əsəri ədəbi prosesi sosialist realizmi yaradıcılıq metodunun aktual problemləri işığında tədqiq etməyin diqqətəlayiq bir nümunəsidir. Poetik yaradıcılığa canlı və fəal münasibət, onun aparıcı meyillərini düzgün qiymətləndirmək fikrinin müstəqilliyi – bu monoqrafiyanın əsas məziyyətləri kimi qeyd oluna bilər [3, s.196].

Arif Səfiyev isə bildirirdi ki, "Azərbaycan sovet şeirinin ənənə və novatorluq problemi" monoqrafiyası həm müəllifin özünün, həm də ümumən ədəbiyyatşünaslığımızın ciddi nailiyyəti kimi qiymətləndirilməlidir [5, s.5].

Tənqidçinin öz həmkarı Yaşar Qarayevlə birgə yazdığı digər monoqrafiya isə "Poeziyanın kamilliyi" (1985) adlanır. Əsər XX əsr Azərbaycan ədəbiyyatının qüdrətli sənətkarı, Xalq şairi Bəxtiyar Vahabzadənin yaradıcılıq irsinin təhlilinə həsr olunmuşdur. İki bölmədən ibarət olan bu monoqrafiyanın "Poeziya" hissəsi Şamil Salmanova məxsusdur. O Bəxtiyar Vahabzadə yaradıcılığını fikir poeziyası kimi səciyyələndirərək yüksək qiymətləndirmişdir. Tənqidçinin müşahidələrinə görə, Bəxtiyar Vahabzadə şeirlərində fikir metaforadır, dünyanın daxili keyfiyyətlərini açan obrazdır. O yazır: "Fikir Bəxtiyar poeziyasında insanın kainatı, predmetləri və hadisələri dərk etmək, onların mahiyyətinə, daxili dünyasına nüfuz etmək ehtirasıdır. Fikir bu poeziyada həqiqətdir, dünyanın min bir təzadları qarşısında heyrət hissidir, zamandır, təbiətdir. Fikir bu poeziyada işıqdır" [2, s.90].

Öz tədqiqatlarında Şamil Salmanov XX əsr Azərbaycan poeziyasının demək olar ki, bütün dövrləri və görkəmli nümayəndələri Səməd Vurğun, Rəsul Rza, Mikayıl Müşfiq, Süleyman Rüstəm, Məmməd Rahim, Nəbi Xəzri, Bəxtiyar Vahabzadə, Məmməd Araz, Əliağa Kürçaylı və başqa şairlər haqqında özünün nüfuzlu tənqidçi-ədəbiyyatşünas sözünü demiş, onların yaradıcılıqlarının əsas məziyyətlərini üzə çıxarmış, həm ideya-məzmun, həm də sənətkarlıq baxımından inkişaf xüsusiyyətlərini müəyyən etmişdir.

Şamil Salmanovun müasir poeziya haqqında araşdırmalarının əsas qəhrəmanı, şübhəsiz ki, Rəsul Rza olmuşdur. Tənqidçi görkəmli sənətkarın yaradıcılığına silsilə məqalələr həsr etmiş, onun əsərlərinin əsas xüsusiyyətlərini üzə çıxarmağa çalışmışdır. Şamil Salmanov haqlı olaraq belə hesab edirdi ki, Rəsul Rza yaradıcılığının əsas cəhəti onun novatorluğu ilə bağlıdır. Şairin sənətini "Müasir Azərbaycan poeziyasının böyük hadisələrindən biri" kimi qiymətləndirən müəllif bu

poeziyada novatorluğun rolunu belə müəyyənləşdirirdi: "Novatorluq – poeziyaya dövrün yeni faktını, yeni materialını, onun səciyyəvi mənəvi-əxlaqi sifətlərini gətirməkdir. O şeyi gətirməkdir ki, həyatın özündə yeni və sağlamdır, fəal və mütərəqqidir. Novatorluq poeziyanın əsrin böyük həqiqətinin, mürəkkəb məzmunun tərcümanına çevirməyi bacarmaqdır. Novator sənətkar təkcə yeniliyi həyatda, insanların düşüncə və hisslərində axtarıb tapmaqla kifayətlənmir. O poeziyanın özündə də kəşfiyyat aparır, onun açılmamış qatlarını, yeni, müasir vəzifələrini, imkanlarını axtarıb tapır" [4, s.135, 136].

Alimin Məhəmməd Füzuli, Mirzə Fətəli Axundov, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid və başqa sənətkarların həyat və fəaliyyətinə həsr etdiyi məqalələri ədəbiyyatşünaslığımızın ən yaxşı, mükəmməl əsərlərindən hesab olunur.

O, eyni zamanda tənqid tariximizin yaranması və təşəkkülü haqqında sanballı elmi tədqiqatların da müəllifidir.

## Nəticə / *Conclusion*

Azərbaycan ədəbi tənqidinin təşəkkül dövrü, inkişaf yolları, ayrı-ayrı mərhələləri, görkəmli simaları haqqında fikir və mülahizələrini Şamil Salmanov "Müasir Azərbaycan ədəbiyyatının təşəkkülü və inkişaf meyilləri" adlı doktorluq dissertasiyasında ümumiləşdirmişdir. Bu əsərdə alim ilk dəfə olaraq Azərbaycan ədəbi tənqidinin ənənələri, milli ədəbiyyatın tarixində ədəbi tənqidin mövqeyi, ədəbi prosesdə yeri, müasir ədəbiyyatda qəhrəman problemi, yaradıcılıq metodu və s. məsələlər sistemli elmi izahını tapmışdır. Onu da qeyd edək ki, tənqidçi-alim dissertasiya işinin əsasında monoqrafiya hazırlasa da bu kitabı çap etdirmək ona nəsib olmamışdır.

Şamil Salmanov ədəbiyyatımızı, ədəbiyyat tariximizi mükəmməl bilirdi, o ədəbiyyatın, ədəbiyyatşünaslığın təkcə bir sahəsi üzrə tədqiqat aparmaqla kifayətlənmirdi, əsl tənqidçi kimi yeni yaranan əsərin poeziya, nəsr və ya dramaturgiya nümunəsindən asılı olmayaraq dərhal öz peşəkar tənqidçi münasibətini bildirirdi.

Görkəmli ədəbiyyatşünas alim Şamil Salmanov Azərbaycan ədəbiyyatı tarixinin nəzəri məsələləri, ədəbi tənqidin tarixi və metodoloji istiqamətində gördüyü işlərlə milli ədəbiyyatşünaslıq elmini zənginləşdirmişdir.

Alimin bütün yaradıcılığı onun ədəbiyyatşünaslıq elminə təmənnasız xidmətinin bir nümunəsidir.

## Ədəbiyyat / *References*


1. "Ədəbiyyat" qəzeti, 17 sentyabr, 2005.
2. Qarayev Y., Salmanov Ş. Poeziyanın kamilliyi. Bakı, Yazıçı, 1985.
3. Nəbiyev B. Poeziya: ənənə və novatorluq. Azərbaycan jurnalı, 1980, №5.
4. Salmanov Ş. Müasirlik mövqeyindən. Bakı, Yazıçı, 1982.
5. Salmanov Ş. Poeziya və tənqid. Bakı, Yazıçı, 1985.

# Основные направления научной деятельности Шамиля Салманова

**Симузар Исмайлова**
Доктор философии по филологии, доцент
Институт литературы имени Низами Гянджеви НАНА
Email: simaismayilova.elm@mail.ru

**Резюме**. В статье отмечается занятие учёного литературоведа Шамиля Салманова начиная с 60-х годов прошлого века последовательным исследованием важных и актуальных теоретико-методологических проблем. Показано, что в нашей литературной среде Шамиль Салманов проявил активную деятельность в основном в поэзии как критик и исследователь литературной критики. Значительная часть статей и трудов учёного была посвящена исследованию основных проблем азербайджанской истории критики. Шамиль Салманов, сказал своё авторитетное слово критика-литературоведа, можно сказать, обо всех этапах поэзии XX века и её представителях.
**Ключевые слова:** Шамиль Салманов, учёный-критик, поэзия, традиция и новаторство, литературная критика